AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRİ

# Ə M R

№ 55

Bakı şəhəri — «13» İyun 2014-cü il

**"Yanıqlı xəstələrə göstərilən tibbi yardımın təkmilləşdirilməsi barədə"**

Müxtəlif hadisələrlə bağlı xəstələrdə olan yanıqların kompleks müalicəsinin yaxşılaşdırılması, həmçinin bu cür xəsarətlər nəticəsində yaranmış qüsurların aradan qaldırılması məqsədi ilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin 14.3-cü bəndini rəhbər tutaraq

## ƏMR EDİRƏM:

1. Bakı şəhər Baş Səhiyyə İdarəsinin 5 nömrəli Şəhər Klinik Xəstəxanasının strukturunda olan yanıq şöbəsi Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasının strukturuna daxil edilsin.

2. Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi E.Əliyevaya və Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru N.Qasımova tapşırılsın:

2.1. 5 nömrəli Şəhər Klinik Xəstəxanasının və Plastik və Rekonstruktiv Cərrahiyyə Klinikasının əsasnamələrində və ştat cədvəllərində müəyyən edilmiş qaydada dəyişikliklər edilsin;

2.2. aparılan struktur dəyişiklikləri ilə bağlı əmək qanunvericiliyinə uyğun olaraq müəssisələrdə kadr sənədləşməsi aparılsın.

3. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın:

3.1. struktur dəyişiklikləri aparılan müəssisələrin maliyyə göstəricilərinə zəruri düzəlişlər edilsin;

3.2. bu əmrdən irəli gələn digər məsələlər həll edilsin.

4. Əmrin icrasına nəzarət nazir müavini N.Əliyevaya həvalə edilsin.

**Oqtay Şirəliyev**